# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 353** **Bakı şəhəri, 17 noyabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının ləğv edilməsi haqqında" 2018-ci il 12 iyul tarixli 292 nömrəli Qərarında və 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

"Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının 3.2-ci bəndinə, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 fevral tarixli 2496 nömrəli Sərəncamının 2-ci hissəsinə və "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 iyul tarixli 292 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1626) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı" üzrə:

1.2.1. adında "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

1.2.2. 6-cı hissə ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1146; 2021, № 8, maddə 967) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası"na aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

"1.3-1. Bu Qərar "Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş dövlət müəssisələrinə şamil olunmur.".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2021.- 19 noyabr.- S.6.